**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**RAİFƏ RAFİQ QIZI SƏFƏROVA**

# AZƏRBAYCAN KİNOSUNDA SOSİAL PROBLEMLƏRİN EKRAN TƏCƏSSÜMÜ (1960 – 1980-CI ILLƏR)

**6214.01 - "Kino, televiziya və digər ekran sənətləri"**

**sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**Bakı – 2015**

**Dissertasiya Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Kinoşünaslıq" kafedrasında yerinə yetirilmişdir.**

**Elmi rəhbər:** **Aydın Ərşad oğlu Dadaşov**
filologiya üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **İsrafil Ramazan oğlu İsrafilov**
Əməkdar İncəsənət xadimi, sənətşünaslıq üzrə elmlər doktoru, professor

**Sevda Nuru qızı İmanova**
sənətşünaslıq üzrə fəlsəfə doktoru

**Aparıcı müəssisə:** **AMEA-nın Memarlıq və İncəsənət İnstitutu**

Dissertasiyanın müdafiəsi 2015-ci il ____11______ayının_10__-da, saat____ Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin FD.02.091 – Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan**: Az – 1065, Bakı, Həsən bəy Zərdabi, 39. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

Dissertasiya ilə ADMİU-nun Kitabxanasında tanış olmaq olar.

Avtoreferat "_9_" _oktyabr_ 2015-ci ildə göndərilmişdir.

**FD.02.091 – Birdəfəlik Dissertasiya Şurasının**
**Elmi katibi, kulturologiya üzrə**
**fəlsəfə doktoru, dosent F.R.Məmmədova**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. XX əsrin 60-cı illərinin əvvəllərində Совет İttifaqının tərkibində inkişaf edən Azərbaycan mədəniyyəti siyasətə, ideologiyaya xidmət etdiyindən incəsənət xeyli müddət durğunluq dövrünü keçirirdi. Bu ənənənin mənfi cəhəti ondan ibarət oldu ki, incəsənət xadimləri və yazıçılar incəsənətin bir çox sahələrini və kinonu novatorcasına inkişaf etdirmək, zənginləşdirmək imkanından məhrum oldular. Məlumdur ki, 1920-30-cu illər kino sənəti bolşevik ideologiyasının ruporu idi. Bu dövrdə ədəbiyyat bolşeviklərin yaratdığı nəzarət dəftərxanasının xüsusi aləti idi. Sovet ideoloji maşınının istehsalı olan ssenariləri kino bir texniki vasitə kimi canlandırır və vizuallaşdırırdı. Kino inqilabi bir yenilik kimi meydana gəlmişdisə, yalnız 1960-cı illərdən başlayaraq həqiqətin carçısına çevrildi.

1960-cı illərdən başlayaraq, daha dəqiq Stalinin ölümündən sonra Sovet cəmiyyətində dəyişikliklər və ılıqlaşma hiss olunmağa başladı, incəsənətdə sabitləşmiş çərçivələr qırıldı. Qlobal ictimai-siyasi atmosferin bir qədər ılıqlaşması, SSRİ-də ideoloji buxovların zəiflədilməsi nəticəsində bədii yaradıcılıq sahəsinə gələn gənc istedadlar mövcud siyasi quruluşun tənqidini verən əsərlər ərsəyə gətirməyə başladılar.

Bu tarixi dönəmdə Heydər Əliyev Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin sədri, Azərbaycan KP MK-nın I katibi vəzifələrində işləyərkən mədəniyyətimizə, xüsusi ilə də kinematoqrafiyaya böyük qayğı göstərirdi. H.Əliyevin səyi nəticəsində ideoloji buxovlardan azad, milli ruhumuzu, mentalitetimizi əks etdirən filmlər ekrana çıxarıldı, hətta ümumittifaq kinofestivallarda göstərilərək baş mükafat aldılar.

Həqiqətəndə, ötən əsrin 1960-cı illəri Sovet ədəbiyyatında və incəsənətində mühüm mərhələ sayılırdı və bu illər kinematoqrafiyada da dərin iz qoydu. Məhz bu dövrdən başlayaraq Sovet Azərbaycan kinosunda istehsalat mövzusunun tədricən arxa plana atılması nəzərə çarpdı. İnsanların güzəranının, ailə-məişət qayğılarının ədəbiyyat və sənətə gəlişi sosial problemlərin təzahürünə də zəmin yaratdı. Bu baxımdan, "Azərbaycan kinosunda sosial problemlərin ekran təcəssümü (1960 – 1980-ci illər)" adlı dissertasiyanın aktuallığı kino tariximizi, bu dövrləri yeni istiqamətlərdə araşdırmaq və müstəqilliyimizin tələbləri ilə öyrənmək zərurətindən irəli gəldi.

Xüsusi ilə qeyd edək ki, istiqlal və milli özünüdərk ideyaları həm ədəbiyyatımızda, həm də mədəniyyətimizdə sovet dövründə ilk dəfə məhz 1960-70-ci illərdə görünməyə başladı. Bu dövrdə yaranan səciyyəvi nəsr nümunələri kino sənətinə də maraqlı mövzular və ideyalar verdi. 60-cı illərdə «Telefonçu qız» (1962), «Böyük dayaq» (1963), «Mən ki gözəl deyildim» (1968), «Bir cənub şəhərində» (1969), «Bizim Cəbiş müəllim» (1969), «Dəli Kür» (1969), «Gün keçdi» (1971), «Baladadaşın ilk məhəbbəti» (1974), «Tütək səsi» (1975), «Arxadan vurulan zərbə» (1977), «Ad günü» (1978) kimi yüksək ideya yönlü filmlər meydana çıxdı. Bu isə aşağıdakı qlobal səbəblərlə bağlı idi. Əvvəla, müharibədən sonra quruculuq hərəkatının başlanması ilə əlaqədar elmi – texniki tərəqqi təşəkkül tapdı və 1950-ci illərin sonunda sonralar elmi ədəbiyyatda ETİ (Elmi Texniki İnqilab) kimi məşhurlaşan amilin formalaşması ilə nəticələndi.İnsanın kosmosa uçuşu və kibernetika sahəsində nailiyyətlər onun əsas atributları idi. İlk dəfə məhz 1960-cı illərdə insan ən böyük ölçü kimi tanıdığı Yerə kosmosdan nəzər salmaq imkanı əldə etdi və dərk etdi ki, yer adı fəqət ən gözəl bir planetdir və yalnız ondan faydalanmaq yox,

həm də onu qorumaq lazımdır. Bu həqiqət isə özlüyündə bir elm kimi ekologiyanın inkişafına təkan verdi.

Nəhayət üçüncü səbəb bu idi ki, müharibə insanın cəmiyyətdə rolunun həlledici olduğunu daha da qabartdı, insanın qüdrətinə, onun igidlik və rəşadətinə hörmət artdı. Başqa sözlə desək, bədii ədəbiyyatda və kinoda insan amili ön plana keçdi.

1960-70-ci illərin Azərbaycan nəsrini məşğul edən ən ümdə məsələlərdən biri qəhrəman və mühit olmuşdur. Həmin illərdə qəhrəmanın ömür yolunu cəmiyyət həyatının konfliktləri fonunda əks etdirməyə meyl güclənmişdir. Göründüyü kimi 1960-70-ci illər Azərbaycan poeziyası, nəsri və dramaturgiyası mühit, qəhrəman, şəxsiyyət və cəmiyyət probleminə geniş yer verməklə, ədəbiyyatın ictimai mövqeyini qaldırmışdır.Ənənəvi sovet nəsrindən fərqli olaraq, yeni Azərbaycan nəsri həyati gerçəkliyi bədii gerçəkliyə çevirmək üçün çox böyük üstünlüklərə malik oldu. Ona görə ki, bu illərdə qəhrəmanlar bütövlükdə həyati lövhələrin aparıcısı kimi çıxış etdi. Yazıçılar insanları bədii qəhrəman səviyyəsinə qaldırmaq imkanı əldə etdilər. Məhz buna görə də bu gün biz həmin dövrün ədəbiyyatından və ya kinosundan danışanda yeni fikirli, yeni məzmunlu, geniş miqyaslı sənətdən danışmalı oluruq. Bu dövr yazıçıların əsərlərinin qəhrəmanları əvvəlki illərin qəhrəmanlarından köklü sürətdə fərqlənirdi. Keçmiş sovet gerçəkliyinin təsvirində realist bir sərtliklə cəmiyyətin sosial konfliktlərini üzə çıxarmaq meylləri qüvvətli idi. Meydana çıxan əsərlərdə yazıçılar həyat həqiqətini daha ciddi şəkildə və olduğu kimi canlandırırdılar. Bu dövrdə nəsr əsərlərində cəmiyyətin sosial bəlalarının realist təsviri inandırıcı və təsirli idi. 60-ci illərin ədəbi nəslinin əsərlərində başlıca müsbət cəhət daim yaradıcılıq axtarışlarında olmaları idi. İnsan sürətlərinin rəngarəngliyi məhz yaradıcılıq axtarışları sayəsində meydana gəlirdi. Belə bir meyl bu dövr yazıçılarının nəsr

əsərlərində daha güclü idi. Adlarını çəkdiyimiz yazıçılar ədəbiyyatımıza və kinoya yeni bir təravət gətirdi.

Ümumiyyətlə, 1960–70-ci illər nəslinin yaradıcılıq axtarışları və nailiyyətləri çağdaş ədəbiyyatımızı və kinomuzu zənginləşdirdi, ona yeni ab-hava, yeni insan sürətləri gətirdi, əvvəlki illərdən fərqli olaraq həyatı işıqlı, müsbət göstərmək meyilləri zəiflədi. 1960-70-ci illər ədəbi nəsli insanın fəaliyyətini, iş uğurlarını deyil, mənəvi ağrılarını və uğradığı çətinlikləri təsvir edir və həyat həqiqətlərini olduğu kimi canlandırmağa çalışırdılar. İlk əvvəllər sovet tənqidçiləri bu yazıçıların əsərlərinə birmənalı münasibət bəsləyirdilər. Beləliklə, bu illərdə ədəbiyyatda baş verən qabarma kinematoqrafiyanın inkişafına müsbət təsir göstərdi.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini 1960–80-ci illərdə çəkilmiş rəngarəng mövzulu, orijinal bədii quruluşa və sənətkarlıq xüsusiyyətlərinə malik bədii filmlərdə sosial mövzunun təcəssüm dərəcəsi müəyyən edir.

Dissertasiyanın "Sosial problemin ekrana gəlişi və bədii həll istiqamətləri" adlı I fəslində "Dağlarda döyüş" (rej. Kamil Rüstəmbəyov,1967); "Yaşamaq gözəldir, qardaşım!" (rej. Ramiz Əsgərov, Antonis Voyazos, 1966); "Əmək və qızılgül" (rej. Tofiq Tağızadə və Oqtay Mirqasımov, 1962); "Ulduz" (rej. və ssen. Ağarza Quliyev, Hüseyn Nəcəfov, Yuli Fogelman, 1964); "Uşaqlığın son gecəsi" (rej. Arif Babayev, 1968); "İstintaq" (rej. Rasim Ocaqov, 1979); "Aygün" (rej. və ssen. Kamil Rüstəmbəyov, 1960); "Sən niyə susursan?" (rej. Həsən Seyidbəyli, 1966**);** "O qızı tapın" (rej. və ssen. Həsən Seyidbəyli, 1970); "Mən ki, gözəl deyildim" (rej. Tofiq Tağızadə, Ağarza Quliyev, Ramiz Əsgərov, 1968); "Telefonçu qız" (rej. Həsən Seyidbəyli, 1962); "Ad günü" (rej. Rasim Ocaqov, 1977); "İnsan məskən salır" (rej. Arif Babayev, 1967) filmləri tədqiqat predmetinə çevrilir. Burada sosial güzəran sosial struktur

kimi araşdırılır və ailə məkanı bədii-ekran təcəssümü kontekstində təhlilə çəkilir.

“Sosial tipologiyanın ekran təcəssümünə cevrilmə məntiqi” adlı II fəsildə kinoda sosial problematikanı əks etdirən tam formalaşmış istiqamətin yeni mərhələsi təhlil predmeti kimi çıxış edir. Bu fəsildə tədqiqat predmeti olaraq “Ulduzlar sönmür” (rej. Əjdər İbrahimov, 1971); “İyirmi altılar” (rej. Əjdər İbrahimov,1966); “Tütək səsi” (rej. Rasim Ocaqov,1975); “Bir cənub şəhəri” (rej.Eldar Quliyev,1969); “Gün keçdi” (rej. Arif Babayev,1971); “Qaynana” (rej. Hüseyn Seyidzadə,1978); “Ürək, ürək” (rej. Eldar Quliyev,1976); “Anlamaq istəyirəm” (rej. Oqtay Mirqasımov,1980) filmlər araşdırılır. Nəticədə müəyyən edilir ki, həmin ekran əsərlərində mövzu-problem əlaqələri ilə yanaşı, strukturun tərkib hissələri, janr, üslub xüsusiyyətləri, yeni cərəyanlara meyl öz əksini tapmışdır.

**Mövzunun işlənmə dərəcəsi.** Azərbaycan kinosunda sosial problemlərin ekran təcəssümü (1960– 1980-ci illər) mövzusu haqqında ayrı–ayrı məqalələr nəşr olunsa da, indiyə qədər müstəqil və fundamental şəkildə işlənməyib. Doğrudur bu barədə filologiya elmləri doktoru Aydın Dadaşovun “Ekran dramaturgiyası: mövzu, struktur, üslub, janr” (1999) monoqrafiyasında, “Ssenari yaradıcılığı” (2001), “Kinoşünaslıq” (2009) dərsliklərində, filoloq - professor Aqşin Babayev və əməkdar mədəniyyət işçisi, kinoşünas Aydın Kazımovun “Azərbaycan kino sənətində ədəbi əsərlərin təcəssümü” (2002) kitabında, sənətşünaslıq namizədi Ramiz Heydərin “Azərbaycan bədii ədəbiyyatı və kino incəsənətinin qarşılıqlı əlaqələri problemləri” (1977) monoqrafiyasında, “Azərbaycan kino tarixi oçerkləri” (2001) dərs vəsaitində, sənətşünaslıq namizədi İsmayıl Tağızadənin “Kino və zaman (1981) kitabında və başqa mənbələrdə 1960–80-ci illərdə çəkilmiş sosial problem baxımından təhlillərinə kifayət qədər yer verilib. Xüsusən

professor Aydın Dadaşovun monoqrafiyalarında filmləri dramaturji, struktur, sosioloji təhlili baxımından təfsilatlı şəkildə öyrənilib. Mətbuatda gedən ayrı-ayrı məqalələrdə XX əsr Azərbaycan kinosu sırf sosrealizm prinsipi ilə təhlilə cəlb edilsə də, müəlliflər sosial problemin əhatəli şərhindən qaçaraq mövzunu dövrün diktəsinə uyğun olaraq araşdırmışdır.

**Dissertasiyanın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi 1960–80-ci illərdə çəkilmiş sosial mövzulu filmləri kinoşünaslıq elminin nəzəri prinspləri əsasında araşdırmaqdır. Araşdırmaya cəlb edilən ayrı–ayrı filmlərin qiymətləndirilməsi zamanı ekran əsərlərinin insan şəxsiyyətinin formalaşdırılmasında rolunu müəyyənləşdirmək, subyektiv, səthi təhlillər və tənqidlərə münasibət bildirmək tədqiqatın mühüm məqsədlərindən biridir.

Yuxarıda göstərilən məqsədlərin həlli aşağıdakı vəzifələri konkretləşdirmişdir. İlk növbədə, dissertasiyada 1960–80-ci illərdə çəkilən filmlərdə ailə–məişət və sosial ziddiyyət problemini, qəhrəmanların mənəvi və siyasi əqidə prinsiplərinin sənətkarlıq baxımından kinematoqrafiyada inkişafını müstəqil mövzu kimi fundamental olaraq nəzəri – estetik aspektdə öyrənmək başlıca vəzifə kimi təyin edilmişdir.

Dissertasiyada təhlilə cəlb olunan "Bir cənub şəhəri", "O qızı tapın", "İnsan məskən salır", "Ad günü", "Anlamaq istəyirəm" və s. filmlərdə dövrün sosial mühiti və personajlar, yaradıcı heyətin rolu dissertasiyanın tədqiqat istiqamətini müəyyənləşdirən əsas problemlərdir. Dissertasiyanın digər vəzifəsi təhlil etdiyimiz filmləri cəmiyyətdəki mürəkkəb ziddiyyətlərin insan şəxsiyyətinin formalaşmasında olan rolu və ailə - məişət problemlər kontekstindən tədqiqata cəlb etməkdir. Tədqiqatda nəzəri problemlər əsasında aparılan araşdırma və təhlillərin əsas vəzifəsi hər

filmin ümumi mənzərəsini, onun semantik məziyyətlərini daha dəqiq meyarlarla qiymətləndirməkdir.

**Dissertasiyanın elmi yeniliyi.** Müdafiəyə təqdim edilmiş dissertasiya Azərbaycan kino sənəti tarixində ötən əsrin 1960-80-ci illəri ərzində sosial problemin ekrana gəlişi və bədii həll istiqamətlərini müstəqillik ideologiyası əsasında sisitemli şəkildə öyrənən ilk tədqiqat əsəridir. Kompleksli araşdırmaya həsr olunan tədqiqat əsərinin yeniliyi həmçinin onun konseptuallığındadır. Burada, 1960–80-cı illərdə çəkilmiş filmlərə, ümumiyyətlə, milli kino prosesinə yeni elmi-nəzəri kontekstdə nəzər salınmışdır.

**Dissertasiyanın elmi-nəzəri və təcrübi əhəmiyyəti.** Tədqiqat ötən əsrin 1960–80-ci illərində çəkilmiş Azərbaycan filmlərində sosial problemlərin tipoloji xüsusiyyətlərinin sistemli şəkildə araşdırılmaqla növbəti tarixi mərhələlərin ekran məhsullarının təhlilinə dair gələcək elmi əsərlərdə tutarlı elmi mənbə rolunu oynayacaqdır. Dissertasiyanın bir sıra elmi nəticə və qənaətləri Azərbaycan kino tarixinin yeni aspektdə öyrənilməsi üçün elmi-nəzəri əhəmiyyətə malikdir. Tədqiqatın əsas elmi nəticələri kino tarixi və nəzəriyyəsi, kino tənqidi, mədəniyyətin sosiologiyası, cəmiyyətin psixologiyası və digər tədqiqatlar üçün, habelə dərsliklərin, tədris proqramlarının, metodik vəsaitlərin hazırlanmasında nəzəri baza kimi tətbiq oluna bilər.

Ümumiyyətlə, araşdırma kinoindustriya sahəsində peşəkar kadr hazırlığında dəyərli vəsaitdir. Dissertasiya Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin və digər bədii təmayüllü tədris ocaqlarında kinoşünaslıq, ədəbi yaradıcılıq, aktyor, rejissor və operator sənəti ixtisasları üzrə təhsil alan tələbələr üçün dərs vəsaiti kimi istifadə oluna bilər.

**Tədqiqatın metodoloji əsasları.** Azərbaycan kinosunda sosial problemlərin öyrənilməsinə həsr olunmuş tədqiqat kompleks fənlərarası yanaşmanın vacibliyini müəyyən

etmişdir. Tədqiqat prosesində sənətşünaslığın, daha dəqiq desək, kinoşünaslığın metodları ilə yanaşı digər humanitar elmlərin, xüsusilə sosiologiya, psixologiya, filologiya elm sahələrinin nəzəriyyə və metodlarına müraciət edilmişdir. Kinoşünaslıq elminin nəzəri - metodoloji şərtləri nəzərə alınaraq sistemli analiz tətbiq edilmişdir. Milli kino sənətində baş verən hadisə və proseslər izah edilərkən səbəb-nəticə əlaqələrinə diqqət verilmişdir.

Tədqiqatda XX əsr və son illərin dünya estetik nəzəri fikri, milli sənətşünaslığımızın elmi-nəzəri təcrübəsi, zəngin kulturoloji və fəlsəfi fikir qaynaqlarından istifadə olunmuşdur. Dissertasiyada kinoşünas tədqatçıların, tənqidçilərin, kino sənətində fəaliyyət göstərən sənətkarların elmi-nəzəri qənaətlərindən faydalanmışdır.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Kinoşünaslıq" kafedrasında yerinə yetirilmişdir. Dissertasiya işinin əsas elmi-nəzəri qənaətləri nüfuzlu respublika və xarici elmi jurnallarda, elmi-nəzəri konfrans materiallarında dərc edilmişdir.

**Tədqiqat işinin strukturu.** Dissertasiya AAK-ın qərarı ilə təsdiq edilmiş tərtib qaydalarına uyğun olaraq yazılmışdır. Əsər giriş, iki fəsil, fəsildaxili dörd yarımfəsillərdən, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı və filmoqrafiyadan ibarətdir.

## DİSSERTASİYANIN QISA MƏZMUNU

“**Giriş**” hissəsində dissertasiyanın aktuallığı, işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, predmet və obyekti, nəzəri-metodoloji əsasları, elmi yeniliyi, nəzəri-praktiki əhəmiyyəti, aprobasiyası və strukturu informativ formada öz əksini tapır.

Tədqiqatın “**Sosial problemin ekrana gəlişi və bədii həll istiqamətləri”** adlandırılmış I fəsli iki yarımfəsildən ibarətdir. Birinci fəslin preambulasında müəllif hər iki yarımfəsildə ortaya atılmış məsələlərin tədqiq dairəsini cızır, “kinoda sosial” mövzunun permanent aktuallığını dissertasiyanın çıxış nöqtəsi kimi götürür.Azərbaycan kino tarixinin sovet mərhələsində lal kino dövründə belə sosial problemin məğzinin kənarda qalmamasına diqqət yetirilir.

Kütləvi təbliğ vasitələri içərisində kinonun özünəməxsus yeri var. Kino tamaşaçının birbaşa şüuruna təsir etmək xüsusiyyətinə malik olmaqla yanaşı kollektiv düşüncəni də formalaşdırır. O, incəsənətin digər sahələrini özündə birləşdirərək insanları sosiallaşdırır. Həyatda gözlənilməz və inanılması mümkün olmayan bir çox hadisə baş verə bilər, lakin kino bizə problemləri, simvol və işarələri dramatikləşdirilmiş şəkildə təqdim edə bildiyinə görə şüurumuza daha yaxşı təsir edir, bizi daha çox düşündürür.

Kinematoqrafiya cəmiyyəti formalaşdıran, onun “görmədiyini” göstərən, onu yönləndirən, şüuruna təsir edən bir vasitədir. Kinonun bu xüsusiyyəti hər kəs tərəfindən bilinir və qəbul olunur. Siyasi senzura çəkilən kadrlara, səsləndirilən fikirlərə müdaxilə etdikcə kinematoqrafçılar da fikirlərini başqa üsul və vasitələrlə, müəyyən simvolika ilə çatdırmağa çalışırdılar. Ssenarist və rejissorlar sosial problemlərin fonunda ictimai-siyasi problemləri qabardaraq problemin yaranmasının səbəblərini göstərməyə çalışırdılar. Çünki onlar da yaxşı

dərk edirdilər ki, kinematoqraf, insanın həyat fəaliyyəti ilə bağlı sosial bir hadisə kimi cəmiyyətin və fərdin özünü ifadə etməsi üsulunun tərkib hissəsidir.

Qəhrəmanın azad və müstəqil bir şəxsiyyət olması kinonu daha çox sosiallaşdırır. O, sosial bir institut kimi tamaşaçını formalaşdırır, fantaziyasını genişlədir, ictimai düşüncəni yönləndirir. Kino ilə formalaşan cəmiyyət də təbii olaraq kinodan həm texniki, həm də tərəqqi baxımından yeni nailiyyətlər əldə etməsini tələb edir. Kino cəmiyyəti "yaratdığı" kimi, cəmiyyət də kinonun yaradıcısına çevrilir.

Kinematoqrafiyanın gücü o qədər böyükdür ki, o bir anda sosial ifşaçıya çevrilə bilir. Faktların və elmi araşdırmaların gizlədildiyi zamanlarda kino "gizli simvolika"nın yardımı ilə hadisələri işıqlandıra bilir. Bəzən tarixi bir filmin köməyi ilə günün problemi qabardılır. Kinodan hər zaman bu problemlərin həlli yollarını gözləmək isə doğru deyil. Unutmaq olmaz ki, incəsənətin rolu əsasən sualları verməkdən ibarət olur, onlara cavab vermək isə cəmiyyətin işidir. Başqa sözlə desək kino problemi göstərir, cəmiyyət isə o problemi həll edir.

I fəslin ilk yarimfəsli "**Sosial güzəran tipoloji struktur kimi"** adlanır. Bu yarimfəsildə ötən əsrin 1960-80-ci illərində ölkədəki Nikita Xruşov dövrünün ılıqlaşma siyasəti nəticəsində sosial mövzuların digər sənət sahələri kimi kinoya da gəlişi mümkün olduğu göstərilir. Məhz bu dövrdə istehsal olunan "Aygün" (1960), "Ulduz" (1964); "Dağlarda döyüş" (1967); "Yaşamaq gözəldir, qardaşım!" (1966); "Mən ki, gözəl deyildim" (1968); "O qızı tapın" (1970); "Əmək və qızılgül" (1962); "Uşaqlığın son gecəsi" (1968); "Sən niyə susursan?" (1966**);** "Telefonçu qız" (1962); "İyirmi altılar" (1966); "Bir cənub şəhəri" (1969); "Ulduzlar sönmür" (1971); "Tütək səsi" (1975); "İnsan məskən salır" (1967); "Xoşbəxtlik qayğıları" (1976); "Ürək, ürək" (1976); "Gün keçdi" (1971); "Ad günü" (1977); "Qaynana" (1978);

“İstintaq” (1979); “Anlamaq istəyirəm” (1980) filmlərinin təhlilə cəlb olunması sosial mövzunun ekran həllinin bədii mənzərəsinin yaranmasına imkan verdi.

1960-cı illərin sonuna yaxın ədəbiyyatla kinematoqrafiyanın əlaqəsi daha geniş vüsət aldı. Belə ki, “mülayimləşmə dövrü”ndə incəsənətin bir çox sahələrində yaradıcı ziyalıların təşəbbüskarlığı artdı.

1960-cı illərin sonlarından başlayaraq Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə kinematoqrafiya sayəsində dünya təcrübəsinə əsaslanan milli kadr hazırlığına xüsusi diqqət verildi. Bu gün Azərbaycan kinosunun aparıcı qüvvələri olan bir çox istedadlı sənətkarlar İmran Qasımov, Rasim Ocaqov, Oqtay Mirqasımov, Eldar Quliyev, Cəmil Quliyev, Ayaz Salayev, Şərif Şərifov, Kənan Məmmədov, Rafiq Quliyev, Həmidə Ömərova, Ötkəm İskəndərov, Fərhad İsrafilov və başqaları Moskva Ümumittifaq Kinematoqrafiya İnstitutunda təhsil almağa göndərildi. Bu ixtisaslaşmış kadrlar ali kino kurslarında təhsil alıb, xarici kinematoqrafiya abu–havasını, dünya kinosunun yeni tendensiyalarını, o cümlədən sosial problemlərin işıqlandırmasında istifadə olunan cərəyan və metodları milli kino sənətinə tətbiq etdilər. İctimai şüurda steriotiplərin sarsıdılması, gender problemi, nəsillərin konflikti, arxaik ənənələrə arxalanan davranış modelləri və müasirlik, insan azadlığı və hüquqları, korrupsiya mövzularına həsr olunmuş bir sıra novator filmlər çəkildi. Günün nəbzinə uyğun, yeni düşüncə tərzi ilə ictimai mühitdə möhkəm yer almış davranış normalarını sarsıdan şəxsiyyət tipləri 1960-1980-ci illərdə çəkilən filmlərin baş qəhrəmanlarına çevrildilər. (Məsələn: “Bir cənub şəhərində”, “Ad günü”, “Uşaqlığın son gecəsi”, “Anlamaq istəyirəm”, “İstintaq” və s. filmlər).

Ulu öndərimiz H.Əliyev hakimiyyətə gəldikdən az sonra, 1971-ci ildə "Azərbaycanfilm"in markası altında ekranlara

"Mozalan" satirik kinojurnalının ilk nömrəsi buraxıldı. Bu kinojurnal zəhmətkeşlərin tərbiyəsi sahəsində böyük və faydalı iş aparır, təsərrüfat və mədəniyyət quruculuğunda nöqsanlara, əxlaq prinsiplərindən kənara çıxmaq hallarına qarşı mübarizədə fəal iştirak edirdi. Jurnal öz operativliyi, tənqidi çıxışlar üçün bacarıqla mövzu seçməsi ilə özünəməxsus şəkildə ekranda sosial problemləri əks etdirirdi. “Mozalan” kinojurnallarını şəxsən izləyən H.Əliyev cəmiyyətdə baş verən neqativ halların aradan qaldırılması üçün tapşırıqlar verirdi.

1960-cı illərin ortalarından sənədli filmlərin uğurlu inkişafına təkan verən gənclərdən ibarət yaradıcılıq qrupu təşəkkül tapdı. Rejissor İ.M.Əfəndiyevin “Azərbaycan... Azərbaycan...”, “Sənin həyat mövqeyin”, O.Mirqasımovun “Qobustan”, “Həqiqət üzə çıxır”, Məhərrəmovun “Çörək” və başqalarının sosial mövzuda sənədli filmləri bu qəbildəndir.

1969-cu ildən başlayaraq, milli təsviri sənət ənənələrinə arxalanan cizgi filmləri istehsal olundu. Rejissor Əfəndiyev və Axundovun “Cırtdan” (1969), Axundovun “Fitnə” (1970), Axundov və Panaxinin “Dost axtarışında” (1970) cizgi filmlərini misal çəkmək olar.

1960-cı illərin sonuna yaxın ədəbiyyatla kinematoqrafiyanın əlaqəsi daha geniş vüsət almışdı. Stalinin vəfatından sonra bir çox sahələrdə “mülayim abu-hava” yaranır, yaradıcı ziyalıların təşəbbüskarlığı artırdı. Ekranlaşdırma nəticəsində kino sənətinin bədii dili təzələndi və onun janr, üslub imkanları genişlənməyə başladı. Filmlərdə həyat həqiqətlərinin, ictimai-sosial mövzuların vüsət alması və yaradıcı gənclərin yeni nəslinin kino istehsalında iştirakı kinematoqrafiyanın inkişafına təkan verdi. Yaradıcı rejissor və ssenaristlərin əməyi nəticəsində ekranlaşdırılan filmlər janr müxtəlifliyi, müəllif üslubunun özünəməxsusluğu ilə seçilirdi. Bununla yanaşı istedadlı kino əsərlərinin qəbulunda senzura əngəllikləri nəticəsində filmlərin qiymətləndirilməsində aşkarlığın olmaması gözə çarpırdı.

Kino sənətinin inkişafında elə bir mərhələ yoxdur ki, orada bu və ya digər şəkildə ədəbi əsərlərin təsirini görməmiş olaq. Ədəbiyyatın bir növü kimi özünü doğruldan ssenarinin bədii təbiəti nəsrə yaxın olmuşdur. Bu mətn yəni, ssenari həm gözəl təsvir qüdrətinə, həm də fikri dərin fəlsəfi ümumiləşdirmələrlə verməyə, eyni zamanda dialoqların canlılığına, dinamikliyə, epizodların ayrı-ayrı şəraitlərin, mühitlərin təcəssümünə imkan yaratmışdır. Araşdırmamızın bu yarımfəslində "Dağlarda döyüş" (rej. Kamil Rüstəmbəyov, 1967); "Yaşamaq gözəldir, qardaşım!" (rej. Ramiz Əsgərov, Antonis Voyazos, 1966); "Əmək və qızılgül" (rej. Tofiq Tağızadə və Oqtay Mirqasımov, 1962); "Ulduz" (rej. və ssen. Ağarza Quliyev, Hüseyn Nəcəfov, Yuli Fogelman, 1964); "Uşaqlığın son gecəsi" (rej. Arif Babayev, 1968); "İstintaq" (rej. Rasim Ocaqov, 1979) filmlərini təhlilə cəlb etmişik.

Bu yarımfəsildə təhlilə cəlb etdiyimiz filmlərdə yüksək dramatizm ilə yüklənmiş qəhrəmanların dünyagörüşlərindəki rasionallıq, saflıq, məzlum görkəm, ziyalı davranış, təmkinlik, gərgin, konflikt situasiyalara rast gəlinir. Personajların intensiv, aramlı davranışı tamaşaçıya onun daxili aləmini duymağa, hər kəsin də öz yozumu olmasına imkan yaradır. Bu tip filmlər dövrün sosial mühitinin, ailə-məişətinin ekran təcəssümünü tam reallıqla əks etdirməsə də, onun alt qatlarını, ekran arxasında duran tərəfini anlamağa imkan verir.

Tədqiqatın I fəslinin "**Ailə - məişət məkanı bədii - ekranda**" adlanan II yarımfəslində sosial mövzular 1960-cı illərin ədəbiyyatında və kino sənətində yeni bir təmayül kimi formalaşmağa başladı. Sovet ideologiyası hər bir sənətkara, o cümlədən ssenaristə və rejissora yalnız bir həqiqəti – "sovet gerçəkliklərini" tərənnüm etməyə icazə verdiyindən, tarixi və milli həqiqətləri bədii ədəbiyyatda və ekran əsərlərində işıqlandırmaq o dövrdə çətin olduğundan, sosialist realizminin mövcud olduğu dövrdə ədəbiyyatda olduğu kimi mədəniyyətin bütün sahələrində, o cümlədən kinoda da Kommunist

Partiyasına, Leninə, Stalinə, "inqilab bahadırları"na onlarca əsərlər həsr edildi. Bu əsərlər sovet ideologiyasının diqtəsi ilə yarandığından, bu dövrdə mədəniyyət və sənət totalitar rejimin bir növ nökərinə çevrilmişdi. "Yetmiş ildə bizim mənəviyyatımız və həmin mənəviyyatın bədii yaradıcılıq dünyası heç bir zaman azad, müstəqil olmamışdır, heç bir zaman "yuxarısız", "Mərkəzi Komitəsiz" olmamışdır".[1]

Müharibədən sonrakı illərdə isə yeni dövrün siyasi sifarişi ilə yaradılan "istehsalat romanları" və "müsbət qəhrəmanlar" haqqında professor Mir Cəlal yazırdı: "Bir çox əsərlərimizdə təsvir olunan adamlar real, təbii çıxmır. Nə üçün? Ona görə ki, yazıçı onları maraqlı, mürəkkəb həyatı olan canlı adamlar kimi yox, ancaq bir peşə sahibi kimi sədr, katib, traktorçu, buruq ustası, müəllim və s. kimi təsvir edir. Meşin pencəyi əynindən çıxart, raykom katibi öz obrazlılığını itirmiş olacaq".[2] "İstehsalat romanları"ndakı qəhrəmanlar həyatın və ömrün mənasını yalnız ölkəyə çoxlu təsərrüfat malları – neft, pambıq təhvil verməkdə görür, sosializm cəmiyyətinin insanlara "bəxş etdiyi firavanlığı" pafosla tərənnüm edirdilər. Professor Nizami Cəfərov doğru qeyd edir ki, XX əsrin "40-cı, xüsusilə 50-60-cı illərdə yaranmış mədəniyyətin "sistemini" şərh eləmək, demək olar ki, mümkün deyil, çünki onun universal, milli məntiqi yoxdur. Müharibədən sonrakı dövrdə yazılmış onlarla elə romanlar nümunə göstərmək olar ki, onların Azərbaycanlı idrakının məhsulu olması həddindən artıq şərtidir - burada əsərlərin bütöv strukturu yox, dili, təsvirləri, detalları "azərbaycanca"dır, burada milli idrak ancaq "bəzək" kimi, "universal hadisə"nin etnoqrafik çalarları kimi iştirak edir".[3] Sovet ideologiyasının qadağa və basqılarına, saxta sülhsevərlik

---

[1] Əfəndiyev İ. Seçilmiş əsərləri. Yeddi cilddə. 7-ci cild. Bakı: "Çinar – Çap»,2002, s. 447-448

[2] Mir Cəlal. Ədəbiyyatımızın gənc qüvvələri // "Azərbaycan» jurnalı, 1955, №12, s.128

[3] Cəfərov N. Azərbaycanşünaslığa giriş. Bakı: AZATAM, 2002, s.512

siyasətinə baxmayaraq milli ruh, milli dəyərlərini qoruyan xalq öz istiqlal savaşına da öncə sözlə başladı. 1960-cı illər nəslinin ədəbi qəhrəmanlarının birmənalı olaraq sovet ideologiyasının əsiri olmaması, öz arzu və istəklərinin, qəlb duyğularının və çırpıntılarının bədii ifadəçisinə çevrilməsinə, əsərlərdə yazıçıların öz qəhrəmanını (istər mənfi, istər də müsbət olsun) hərtərəfli, bütün özünəxas cizgiləri ilə açıb göstərməsinə səbəb oldu. Bədii əsərdə insanı hərtərəfli təsvir etməyi L.N.Tolstoyun yazıçı qarşısında mühüm vəzifələrdən biri saydığı: "İnsanın dəyişkənliyini, yəni eyni bir adamın gah yaramaz, gah da mələk, gah aqil, gah da idiot, gah qüdrətli, gah da zəif bir canlı olduğunu aydın göstərən bədii əsər yazmaq nə qədər yaxşı olar"[4] niyyəti personaj dəyişkənliyinin məhz mühitin təsiri ilə üzə çıxmaq imkanını göstərir.

XX əsrin 1960-cı illərindən başlayaraq milli kinematoqrafiyada milli əxlaqi axtarışlar və qadın emansipasiyası problemi sırf sosial problem kimi qabardılmaqla, qadının fərdi, subyektiv, hətta ilk baxışda adət-ənənə ilə uyuşmayan xüsusiyyətləri diqqət mərkəzinə çəkilir.

Azərbaycanın kino ekranındakı qadın personajlarının əksəriyyəti normativ funksiya daşıyan mövzu kontekstində mövcud olsalar da, ötən əsrin 1960-cı illərindən başlayaraq sosial mahiyyət önə keçdi. Nəzərə almaq lazımdır ki, lal kino mərhələsində lentə alınan "Gilan qızı", "Almaz", "İsmət" filmlərindəki qadın personajları əslində sırf siyasi funksiya daşısalar da, onların sosial mühitinin tərkib hissəsində mövcudluğu nəzərdən qaçmadı. Xüsusən 1937- ci ilə qədər çəkilən filmlərə senzuranın passiv müdaxiləsi sosial mahiyyətin ara-sıra önə keçməsinə də mane ola bilmirdi. Əlbəttə ki, belə "ötəri" personajlar kino tariximizdə elə epizodik olaraq da qalıb. Daha doğrusu, belə filmlər hələ ailə

---

[4]Толстой Л.Н. О литературе. М., Государственное издательство художественной литературы, 1955, стр. 486

və məişət mövzusunda qadının tam, dolğun ekran həllini yarada bilmədiyindən bir növ modal xarakterə malik olub, yarımçıq qalıb. Əgər biz ailə və məişətimizin ekran təcəssümündən danışırıqsa burada təbii ki, daha çox qadın personajları göz qabağında canlanır. C.Cabbarlının ailə-məişət məngənəsində boğulan qadın personajlarının sosial problemini qabartmaq istəyi həmişə onun sənət amalı olub. Onun ekranımıza da gətirdiyi Sevil personajı səhnəmizdə və kinomuzda əzilən günahsız qurbandan, sosial-siyasi hüququnu tələb edən ideya daşıyıcısına çevrilir. 1928-ci ildə dramaturqun yazdığı "Sevil" dramının bir il sonra səhnəyə gəlişi və ekran həllini tapması əsərin kütləviləşməsinə təkan verdi. Əsərin sosial-siyasi yükünün miqyasını dərk edən dramaturq azərbaycan kinosunda feminizm ruhlu ilk filminin yaranmasına təşəbbüs göstərdi.

Yarımfəsilin sonunda belə qənaətə gəlirik ki, 1960-cı illər bədii kinosunun ideya istiqamətinin əsasını cəmiyyət, mənəvi–əxlaqi problemlər və milli mentalitet müəyyən edirdi. Bu baxımdan "Aygün" (1960); "Sən niyə susursan?" (1966); "O qızı tapın" (1970); "Mən ki, gözəl deyildim" (1968); "Telefonçu qız" (1962); "Ad günü" (1977) kimi sosial mövzuya həsr olmuş filmlər həmin illərdə maraqla qarşılanmış və müəyyən mübahisələrə səbəb olmuşdur. Təhlil zamanı müəyyən oldu ki, qəhrəmanların daxili aləmini, mənəvi zənginliyini artırmaq və hadisələrin qüvvətli verilməsi üçün rejissorlar fərdi yaradıcılıq imkanlarından ustalıqla istifadə etmişlər. 60-cı illərdə çəkilmiş filmlərdə sovet ideologiyasının bütün ehkamlaşmış normaları deformasiyaya uğrayır, ictimai amili konkret insan amili üstələyirdi.

Dissertasiya işinin "**Sosial tipologiyanın ekran təcəssümünə cevrilmə məntiqi"** adlanan **II** fəslinin preambulasında qeyd edilir ki, XX əsrin 60-cı illərindən başlayaraq bu dövr ədəbiyyatın, kino sənətinin və

mədəniyyətin inkişafında yeni bir mərhələ oldu. Bu dövr ədəbiyyatında insan bədii tədqiqatın əsas mövzusuna çevrildi. M.Qorki mövzu anlayışını izah edərək yazdığı: "Mövzu müəllifin təcrübəsindən doğulan, ona həyat tərəfindən diqtə olunan, fəqət təəssüratların ağuşunda hələ formalaşmamış şəkildə yuva bağlayan, obrazlarda təcəssümünü tələb edən, öz bədii reallaşması üçün yazıçını əməli işə sövq edən ideyadır" [5] fikirlər əslində istənilən əsərdə sosial problemdən qaçılmazlığı səciyyələndirir.

Milli kino sənətində sosial problemlərin təcəssümü bütün zamanlarda xüsusi əhəmiyyət kəsb etmişdir. 60-cı illərin bədii nəsri milli kino sənətində mənəvi-psixoloji axtarışlar mövzusunun əsasını təmsil edirdi. Bu illərdə "Telefonçu qız" (1962), "Böyük dayaq" (1963), "Mən ki, gözəl deyildim" (1967), "İnsan məskən salır" (1967), "Bir cənub şəhərində" (1969), "Bizim Cəbiş müəllim" (1969), "Dəli Kür" (1969), "Uşaqlığın son gecəsi" (1969), "Gün keçdi" (1971), "Baladadaşın ilk məhəbbəti" (1974), "Tütək səsi" (1975), "Ad günü" (1978), "Arxadan vurulan zərbə" (1978) və başqa filmlər geniş tamaşaçı auditoriyasının rəğbətini qazandı.

1960-cı illər kinosunda sosial axtarışların əsas ideya istiqamətlərindən birini mövcud cəmiyyət, daha doğrusu, sovet sistemi və milli mentalitet problemi müəyyən edirdi. Hər bir ədəbi janr yazıçıya həyat həqiqətlərini, insan və dünya münasibətlərini əks etdirməyə geniş imkan verir. A.M.Baxtin yazmışdır: "Əsrlər boyu janrlarda… gerçəkliyin müəyyən cəhətlərini görmək və dərk etmək formaları yığılıb cəmləşir. Peşəkar yazıçıya janr zahiri şablonu ilə xidmət edir, böyük sənətkar isə onda mövcud olan məna çalarlarını aşkara çıxarır".[6] Bu cəhətdən rejissorlar E.Quliyevin çəkdiyi "Bir

---

[5] Горький М. О литературе. М., Советский писатель, 1983, стр. 153

[6] Бахтин М.М. Эстетика словесного творчества. М., 1979.стр. 332

cənub şəhərində" (1969), A.Babayevin "Uşaqlığın son gecəsi" (1969), R.Ocaqovun "Ad günü" və başqa ekran əsərləri hələ öz dövründə maraqla qarşılanmış və bəzi mübahisələrə səbəb olmuşdur. Belə ki, bu filmlərdə Azərbaycan xalqının adət və ənənəsi, milli mentaliteti ön plana çıxarıldığı üçün hər zaman siyasi senzuranın etirazına səbəb olmuşdur.

1960–80-ci illərdə çəkilən filmlərin milli özünüdərk, milli mənlik şurunun inkişafı baxımından böyük tarixi əhəmiyyəti var idi. Mənəvi – psixoloji axtarışlar mövzusu 60-80-ci illər kino sənətinə həm həyatın özündən, həm də yeni Azərbaycan nəsrindən gəlirdi. Bu dövr filmləri üzərində apardığımız müşahidələr bizə belə nəticəyə gəlməyə imkan verir ki, insan mənəviyyatının dərin hiss və duyğularının təcəssümünə həsr olunmuş bədii filmlərdə kino yaradıcıları həm də ideya – məzmun və bədii – estetik görütünün, əlvanlığın artmasına xüsusi diqqət yetirmişlər.

1960-80-ci illərdə çəkilmiş filmlərdə rejissorlar obrazların milli mentalitetini, mənəvi – psixoloji bütövlüyünü və daxili aləmini hərtərəfli açıb göstərməyə nail oldular. Səciyyəvidir ki, milli kino sənətində milli mentalitet və mənəvi – psixoloji bütövlük problemi eyni zamanda yeni rejissor, operator nəsli, aktyor nəsli, həm də rəssam və bəstəkarlar formalaşdırdı. Mənəvi–psixoloji bütövlük mövzusu istiqamətində kinorejissor Eldar Quliyev, Rasim Ocaqov, Həsən Seyidbəyli, Arif Babayev, Kamil Rüstəmbəyov, Şamil Mahmudbəyov və başqaları öz fərdi üslubları və dəst-xəttləri ilə seçilirdilər. Aktyorlardan Şəfiqə Məmmmədova, Yusif Vəliyev, Həsən Turabov, Həsən Məmmədov, Rasim Balayev, Həmidə Ömərova, Hamlet Xanızadə və s. öz yaradıcılıqlarını həmin mövzu istiqamətində davam etdirərək canlı və yaddaqalan obrazlar yaratdılar. Kinorejissor Oqtay Mirqasımov həmin illərdə çəkilmiş filmlərdən bəhs edərək yazdığı: "Bizim nəslimiz üçün ən əhəmiyyətli illər, 60-cı illər indi ekranda göstərilmiş fraqmentlərlə əks olunmuşdur. 60-70-ci illər, 80-ci

illərin əvvəlləri daha parlaq, kəskin, sosial cəhətdən aktiv, bədii cəhətdən realist filmlər, tarixi, mühüm, böyük və formaca yeni filmlər yaradılmış illərdir”[7] həmin mərhələnin sonrakı dövrlərə təsirini əks etdirir.

Zənnimizcə, 60-cı illərdə çəkilən filmlərin bir çoxunda sovet gerçəkliklərini üzə çıxarmaq meyli güclü idi. Yəqin ki, bu və başqa səbəblərə görə filmlərin ekranlara buraxılmasına maneəçilik törədilirdi. Bu filmlərin qiymətlənidirilməsində senzura əngəllikləri olmasına baxmayaraq ekranlaşdırılan filmlər böyük uğur qazandı və kino aləmində öz sözünü deyə bildi. “Dəli Kür”, “Gün keçdi”, “Axırıncı aşırım”, “İstintaq”, “Nəsimi”, “Tütək səsi”, “Mən ki, gözəl deyildim”, “İnsan məskən salır”, “Uşaqlığın son gecəsi”, “Gilas ağacı” və. s kimi filmlərimizi misal çəkmək olar.

Tədqiqatin II fəslinin **birinci** yarımfəslinin adı “**Sosial mühitlə personajın əlaqə dinamikası”** kimi müəyyən edilmişdir. Mədəniyyət ictimai həyatın fundamental ünsürüdür. O, cəmiyyətə, sosial qruplara, fərdə davranışın təşkilini, düşüncələrini, emosiyalarını, qiymətlərini formalaşdırmağın normalaşmış üsullarını bəxş edir. Mədəniyyətin uzunmüddətli fəaliyyət göstərən mexanizmləri sosial praktikanı dinamikləşdirməyə, ənənələri, davranış və fəaliyyət normalarını yeniləşdirməyə, vaxtı keçmiş normalardan, ənənələrdən imtina etməyə imkan verir.

II fəslinin bu yarımfəslində “Ulduzlar sönmür” (rej. Əjdər İbrahimov, ssen. İsa Hüseynov, Ə.İbrahimov, 1971); “İyirmi altılar” (rej. Əjdər İbrahimov, ssen. İsa Hüseynov, Əjdər İbrahimov, Mark Maksimov, 1966); “Tütək səsi” (rej. Rasim Ocaqov, ssen. İsa Hüseynov, 1975); “Bir cənub şəhəri” (rej. Eldar Quliyev, ssen. Rüstəm İbrahimbəyov,

---

[7] Ulduzə Qaraqizi. Azərbaycan filmlərinin yaranma tarixindən. Bakı, “E.L.” nəşriyyat və poliqrafiya şirkəti MMC, 2006, səh 688, 43

1969) filmləri sosial baxımdan, həm də mühit personaj əlaqələri baxımından təhlilə cəlb olunub. Həm də, təhlilə çəkdiyimiz filmlərdə qlobal problemlərə münasibəti müşahidə etdik. Sovet ideologiyası hökm sürdüyü bir tarixi dönəmdə kino sənətinə qədəm qoymuş gənc rejissorlar dünya kino sənətkarlarının Vittorio De Sika, Fellini, Roy Andersson, Andrey Tarkovskiy, Jan Viqo, Leni Rifenştal, Aleksey Qerman, Klod Leluş və başqalarının yaradıcılığından bəhrələnərək insanın yalqızlığı, tənhalığı ilə bağlı sosial-psixiki problemləri mexaniki olaraq bizim həyatımızla bağlayıb kinomuza yeni mövzular gətirməyə cəhd göstərirdilər. Həmin rejissorlardan ki, müasirləri olduğu həyatın nəbzini tutmağa imkan verən yeni "kino dili"nin ixtiraçıları kimi dünya kinematoqrafında iz qoydular.

Dissertasiyanın II fəslinin **ikinci** yarımfəsli **"Güzəranın sosial tipologiyaya çevrilməsində ekran təcəssümü"** adlanır. Sosiologiya elminin nəzəri müddəalarına görə, mənəvi dəyərlər sosial əlaqələri nizamlamağın çevik sistemidir. Məna insan təcrübəsinin sosial-mədəni kommunikasiyaya qoşulması üsuludur, insanı əhatə edən obyektlərlə, onun öz vəziyyəti və fəaliyyəti ilə sıx bağlıdır. O, tarixi təcrübə zəminində təşəkkül tapır, məlum birliyin bu və ya digər hadisəyə maraqlı münasibətini ümumiləşdirir. Sosial mühitdə yer alan işarə sistemləri mədəniyyətin spesifik mətnləridir. İnsan həmin işarələrin mənasını alır, müvafiq davranış nümayiş etdirir, öz hərəkətlərinin başqalarının hərəkətləri ilə uyğunlaşdırır. [8] Bu yarımfəsildə "Gün keçdi" (rej. Arif Babayev, ssen. Anar, 1971); "Qaynana" (rej. Hüseyn Seyidzadə, ssen. Əjdər İbrahimov, Marqarita Maleyeva, 1978); "Ürək, ürək" (rej. Eldar Quliyev, ssen. Rüstəm İbrahimbəyov, 1976); "Anlamaq istəyirəm" (rej. Oqtay Mirqasımov, ssen. Nəbi Xəzri, 1980) filmləri təhlilə cəlb olunub. Burada filmlərin əsas tədqiqat

---

[8] Vahidov F.Q., Ağayev T.B..Sosiologiya. Bakı: 2008, səh. 313

predmeti personajların güzaranı, sosial problem kimi təyin olunub.

Nəzərə almaq lazımdır ki, tamaşaçı obrazı sevdiyi zaman filmi sevə bilir. Biz hesab edirik ki, tədqiqata cəlb etdiyimiz filmlərin əksəriyyətində tamaşaçılarda filmin əsas qəhrəmanlarına qarşı xüsusi rəğbət hissinin olması məhz o filmləri tamaşaçının sevimlisi edə bilmişdir. Sevimli qəhrəmanlarının dramatik vəziyyətlə düşməsi, tamaşaçı ilə eyni problemləri yaşaması onları “kino qəhrəmanı” olmaqdan çıxararaq “real həyat insanları”na çevirə bilmişdir.

Tədqiq etdiyimiz filmlərdə qoyulan problemlər aktual olmaqla yanaşı həm dövrün real abu-havasını tədqim etmiş, həm də mühitin sosial durumunu gözlər önünə sərmişdir. Davamlı şəkildə rifahdan, xoşbəxt həyatdan bəhs edən idealogiya özünü doğrultmamış, cəmiyyətdə bir natarazlıq hökm sürmüşdü.

Təhlilə cəlb olunan filmlərdə sosial ziddiyətin şəxsiyyətin formalaşmasında təsiri diqqəti cəlb edir. Araşdırmamızın nəticələrinə görə, təhlilə cəlb olunan filmlərin personajları öz dövrünün sosial mühitində nə qədər haqsızlıqlarla, ziddiyyətlərlə qarşılaşsalar da onlar mübarizliyi, yüksək mənəvi dəyərləri ilə qalib çıxırlar.

Təqdim olunan dissertasiyada araşdırmaya cəlb edilən 1960–80-cı illərdə çəkilmiş filmlərdə sosial mövzunun ekran təcəssümü kinoşünaslıqda qəbul olunmuş təhlil prinsiplərindən faydalanaraq təhlil və tədqiq olunmuşdur. Düşünürük ki, kinonun insan həyatına, onun ailə və məişətinə sürətlə sirayət etməsini nəzərə alsaq bu mövzu ətrafında yeni-yeni tədqiqatların aparılması zəruri şərtə çevrilir.

Tədqiqat işinin “**Nəticə”sində** dissertasiyanın işlənilmə prosesində əldə edilmiş yekun qənaətlər verilir.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakı elmi məqalələri və tezisləri çap olunmuşdur:**

1. **Azərbaycan kinosu beynəlxalq əlaqələr kontekstində** // "Mədəniyyət dünyası" elmi-nəzəri məcmuə, № VI, Bakı: ADMİU, 2003, səh. 303-305;

2. **Böyük yolun başlanğıcı**//"Mədəniyyət: problemlər və perspektivlər". Elmi məqalələr toplusu. № 2, Bakı, 2001. səh. 101-105;

3. **Feminizm nədir?**//"İstiqlal işığında".Məqalələr toplusu. Bakı: 2003, səh. 107-112;

4. **Milli kinomuzda qəhrəman tipajının dəyişmə intensivliyi** // Azərbaycan Respublikası Təhsil Nazirliyi. Doktorantların və gənc tədqiqatçıların XVI Respublika elmi konfransının materialları. Bakı: 2012, səh.413-415;

5. **"İstintaq" filminin strukturunda mənəviyyat problemi** //"Musiqi dünyası" jurnal. №3/60, Bakı: 2014, səh. 62-64;

6. **Ailə məkanı ekranda**// "Harmony". Elektron jurnal. №12/2013, http://harmony.musigi-dunya.az /RUS/ archivereader . asp? txtid=566&s=1&iss=24

7. **Влияние сложно-социального противоречия в обществе на формирование личности** //"İzdəniz" (Поиск). Научный журнал. Казахстан.

8. **Приход социальных проблем на экран**// Международная научно-теоретическая конференция: Образование в области искусства: инновационные процессы, результаты, изыскания. Государственный Институт Узбекистана. (Çapdadır)

9. **Həyat güzəranının sosial tipologiyaya çevrilməsində ekran ekvivalentləri** // Elmi əsərlər, № 19, Bakı: ADMİU, 2015. səh. 139-148;

**Раифа Сафарова**

# Экранное воплощение социальных проблем в азербайджанском кино (1960-1980 гг.)

## Резюме

1960-е годы прошлого столетия, являющийся важным этапом в советской литературе и искусстве, оставили неизгладимый след и в кинематографе. Именно, начиная с этого периода, тематика «производства» в азербайджанском кино переходит на второй план.

С приходом посредством литературы темы повседневной и семейно-бытовой жизни людей в искусство, возникла почва для отражения социальных проблем и в киноискусстве.

Во **введении** диссертации рассматриваются актуальность и степень изученности проблемы, научная новизна, теоретическая и практическая значимость, цели и задачи, обьект и предмет, методологические основы, степень апробированности и структура исследования.

В первой главе диссертации - «Появление социальных проблем на экране и направление его художественного решения» - был проведен анализ фильмов, созданных в 60-ые годы, как «Айгюн» (реж. и авт. сцен. К.Рустамбеков, 1960), «Улдуз» (реж. и авт. сцен. А.Гулиев, Г.Наджафов, Ю.Фогельман, 1964), «Следствие продолжается» (реж. А.Атакишиев, 1966), «Последняя ночь детства» (реж.А.Бабаев, 1968, «Почему ты молчишь» (реж. и авт. сцен. Г.Сеидбейли,1966), где нашло свое отражение злободневные проблемы общества.

Во второй главе диссертационного исследования под названием **«Типология социальных проблем»** анализируются следующие фильмы: «День прошел» (реж.

А.Бабаев, 1971), «Звёзды не гаснут» (реж. А Ибрагимов, 1971), «Сердце, сердце» (реж. Э.Гулиев, 1976), «Сверкровь» (реж.Г.Сейидзаде,1978), «Хочу понять» (реж.О.Миркасимов, 1980). Автор приходит к выводу, что в этих фильмах наряду с тематически-проблемными связями находит свое отражение составные части структуры, жанровых и стилистических особенностей их драматургии, а также развитие их под влиянием новых тенденций.

В **заключении** диссертации автор обобщает основные положения исследования.

**Raifa Safarova**

## Screening of social problems in Azerbaijani cinema (1960-1980 years)

### Summary

The 60s of the last century were considered an important stage in Soviet literature and art and had an influence on cinematography too. Beginning with that period in Soviet Azerbaijani cinema the theme of industry was put on the background. Expressing of peoples` life, their problems and troubles in literature and art created a base for display of social problems.

In the introduction of the thesis are noted actuality of the theme, its scientific novelty, practical importance, degree of studying of the problem, aims of the research, methodological base and references. Films produced during that period, such as "Aygun" (director and script writer Kamil Rustambeyov, 1960), "Ulduz" (director and script writer Agarza Quliyev, Huseyn Najafov, Yuliy Fogelman, 1964), "The investigation goes on" (director Alisattar Atakishiyev, 1966), "Living is beautiful, my brother" (director Ramiz Askerov and Antonis Voyazov, 1966), "I wasn`t beautiful" (director Tofig Tagizade, Agarza Guliyev, Ramiz Askerov, 1968), "Work and a rose" (director Tofig Tagizade, 1962), "The last night of the childhood" (director Arif Babayev, 1968), "Why don`t you speak?" (director and script writer Hasan Seyidbeyli, 1966) have been researched in the first chapter named as "Screening of social problems and directions of their artistic solution". In the first chapter social life is researched as a social structure and a family is analyzed in the artistic-screen context.

In the second chapter named as "Typology of a social problem" is reflected a new completed stage of a completely formed direction. In this chapter have been researched such films as "Stars never go out" (director Ajdar Ibrahimov, 1971),

“Happy cares” (director and script writer Hasan Seyidbeyli, 1976), “Heart, heart” (director Eldar Guliyev, 1976). Here has found their reflection relations of the theme-problem, component parts of the structure, genre, features of style, tendency to new trends. A social problem which played a deciding role in the democracy process of the environment caused revolutionary changes in consciousness and made a total system of the Soviet government come to the end. And thus there appeared a demand to the art where the man was in the centre.

In the conclusion are noted main directions of the research.

**Министерство Образования Азербайджанской Республики**
**Азербайджанский Государственный Университет Культуры и Искусств**

*На правах рукописи*

**РАИФА РАФИК гызы САФАРОВА**

# ЭКРАННОЕ ВОПЛОЩЕНИЕ СОЦИАЛЬНЫХ ПРОБЛЕМ В АЗЕРБАЙДЖАНСКОМ КИНО

**6214.01 – «Кино, телевидение и другие виды экранного искусства»**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии в области искусствоведения**

**Баку- 2015**